# QAN BORCU



**ADİL CƏMİL**

***Azərbaycanın azadlığı uğrunda şəhid olan yurddaşlarımızın ölməz xatirəsinə***

## (Poemadan parça)

***O GECƏ***

**(yaxud 19-20 yanvar)**

Yavaş-yavaş şər qarışır,
Yenə də qaynayır şəhər.
Demə özündən xəbərsiz
Od ilə oynayır şəhər.

Bu şəhərin yollarını
Kəsibdir insan "hasarı".
Başbilənlər başa düşmür
Nədir millətin azarı.

Nədir canlı "barrikada",
Nə istəyir körpə, uşaq.
Toplaşıblar topa-topa,
Ortalıqda yanır ocaq...

Bu şaxtalı qış gecəsi
Bu adamlar üşümürmü?
Hara çəkir xalqı bu yol,
Görən kimsə düşünürmü?...

Bəli, bəli tədbir tökük
Düşünən var, daşınan var.
O gecənin zülmətində
Yaraqlanıb yaşınan var.

Nə biləsən başımıza
Yağmağa qurğuşun gəlir.
Qanımıza yerikləyən
Poladpaltar qoşun gəlir...

***

Tırtılların səsi yaxın...
İşıqlanır qara gecə.
Kimsə bilmir tank "karvanı"
Hardan gəlir, hara keçə.

Biz görmüşdük bu tankları,
Bu zirehli maşınları.
Görməmişdik qana həris
Bu əcayib qoşunları.

Çəhrayıya çalan sifət
Birgünlükdən qan-qan deyir.
Yazıq insan beləsinə
Nə ürəklə insan deyir?

Bu pələnglər pəncəsindən
Qurtulmağın çarəsi yox.
Yox, yox, onlar əsgər deyil -
Beləsinin anası yox...

Tez bölünüb dəstələrə
Yırtıcılar halay vurur.
İşıqsaçan odlu güllə
Qaranlığa qalay vurur...

Fəryad qopur gecəyarı,
Qaranlıqda qan tökülür.
Ağacdan yarpaqsayağı
Torpağa insan tökülür.

Yolda ocaq qalayının
Qəfildən ocağı sönür.
Bir gecədə neçə ömrün
Qaynar gənclik çağı sönür.

Qardaşını itirən kim,
Yoldaşını itirən kim.
Bu qırğına inanmayıb
Öz başını itirən kim.

Haray çəkən adamları
Ağır tanklar əzib keçir.
Silahsız "yolkəsənləri"
Tırtılıyla kəsib keçir.

Güllələyib söndürürlər
İşıq salan qəndilləri.
Sönmüş ocaq yerlərində
Ləpələnir qan gölləri.

Süngülərə keçirirlər
Qocaları, körpələri.
Xalqımın yol çəkən gözü
Görməliymiş gör nələri...

***

Göz açandan gözümüz yaş -
Bu dünyada nələr gördük.
Haqsızların pəncəsində
Haqqımızı mələr gördük.

Mənim kölə taleyimdə
Dərdimin ən ağırı - bu.
Azadlığa gedən yolun
Aqibəti, axırı - bu.

Kimdir mənim mənliyimi
Bu gecə sınağa çəkən?
Üzüyumşaq millətimi
Sola çəkən, sağa çəkən?

Kimdir mənim kürəyimi
Hədəf seçən, nişan edən?
Şəhərimin göylərini
Belə atəşfəşan edən?

Bir ölkədə biz biriksə
Axmayaydı bu qan gərək.
Bir gün sonra çıxmayaydı
Fövqəladə fərman gərək...

Ay-Ulduzu görən cəllad
Bayrağımı al-qan edir.
Qoşun "borcunu ödəyib"
Bizi qana qəltan edir.

Güllə yağır yağış kimi,
Evlər deşmə-deşmə olur.
Ahıl, uşaq, qadın, kişi -
Hamı dönüb "düşmən" olur.

Gülərüzlü bir millətin
Göz yaşları gilələnir.
Küçələrə çıxmayanlar
Öz evində güllələnir.

Haray çəkən yaralılar
Gah sürünür, gah dururlar.
Meyidləri odun kimi
Maşınlara doldururlar.

...Dilim gəlmir "meyid" deyəm
O gülüzlü cavanlara.
Dilim gəlmir "şəhid" deyəm
Açılmamış solanlara...

Yandırırlar ölənləri
Bu da təzə bir fənd olur.
Qaranlıqda doğma tüstü
Göy üzünə bülənd olur.

Ölənlərə od vurmaqla
Qanlı quzğun iz itirir.
Düşünürəm... insanlığı
İnsan necə tez itirir...

Yaddan çıxır bir ölkənin
Süfrəsində çörək kəsmək.

Yaddan çıxır cəbhələrdə
"Qardaş" deyib kömək gəzmək.

Yaddan çıxır neftimizin
Tankları tərpədən səsi.
Yaddan çıxır o davada
Azərbaycan qələbəsi.

Dirigözlü şəhidləri
Başqa səmtə döndərirlər.
Dənizdə "dəfn" etmək üçün
Gəmilərə göndərirlər.

Sağ qalanlar sürünürlər
Kolun-kosun arasına.
İnildəyən yaralılar
Məlhəm gəzir yarasına.



İşıq düşür  uzaqlardan
Ağ bayraqlı həkim gəlir.
"Qadağandır tibbi yardım" -
Güllələnir hər kim gəlir...

Yaralıya əl atana
Bu vəhşilər güllə atır.
Məni məndən "qoruyanlar"
Asıb-kəsir, qırıb-çatır.

"Bərpa edir asayişi"
Bu tökülən qan üstündə.
"Təzə ilim" gəlib çıxır
Bir təzə fərman üstündə.

***

Neçə-neçə xəstəxana
Doludur ağzına kimi.
Həkimlər göz yaşı töküb
Ağlayırlar ana kimi.

Əldə duruş gətirməyib,
Titrəyir cərrah bıçağı.
Yaşamaqdır yaralının
Bu bıçaqdan umacağı.

"Yaralıyam yatmaram,
Aya kəmənd atmaram.
Mən yaralı görmüşəm,
Yaralı oyatmaram".

Yardım edən maşınların
Biri gedir, biri gəlir.
Qan çilənmiş xərəklərdə
Ölü \gəlir, diri gəlir...

Son nəfəsdə "Vətən" deyib
Gözlərini yumana bax.
Allah, göydən yerə enib
Dizə çıxan bu qana bax...

Birisinin sağı yoxdur,
Birisinin solu yoxdur.
Birinin qolu özgənin,
O birinin qolu yoxdur...

Ana yurdum, öz balanı
Bu görkəmdə tanı indi!
O gülüzlü cavanların
Hanı indi, hanı indi?..

...Dəhlizdə növbəyə durub
Yaralıya qan verən kim.
Son ayaqda son sözünü
Söyləmədən can verən kim...

Əldə duruş gətirməyib
Titrəyir cərrah bıçağı.
Yaşamaqdır yaralının
Bu bıçaqdan umacağı.

Söndürürlər işıqları
Göz gözü görməsin deyə.
O gecə şam işığında
Davam edir cərrahiyyə...

***

Bir gündə bələd olduq
Həyatın hər üzünə.
Gedənlərin yerinə
Təzə insan gəlirdi
O gecə yer üzünə.

O gecə doğulanın
Oğlan idi hamısı.
Gülləbaran altında
Doğulurdu elə bil
Bu torpağın namusu.

Analar körpəsinə
"Şəhid" adı qoyurdu.
Beləcə ölmək üçün
"Şəhid" adı qoyurdu...

***

Yüz illər ağladan Füzuli babam
O gecə dözməyib özü ağladı.
Oxudum şerini təsəlli tapam,
Yaralı Sabirin sözü ağladı.

"Fitneyi-iblisi-məlunu" gördük,
Qətlimə fərmanda qolunu gördük.
Azadlıq, aşkarlıq yolunu gördük -
Şərqin gülümsəyən gözü ağladı.

Eşidib xalqının bu naləsini
Təzədən soyuldu sanki Nəsimi...
O gecə içinə çəkib səsini
Heykəl babalarım bizi ağladı...

***O GECƏNİN SƏHƏRİ***

**(yaxud 20 yanvar)**

Əriyir qara gecə,
Az qalıbdır səhərə.
Fövqəladə fərman var -
"Çıxmaq olmaz şəhərə".

Adamlar öz dərdini
Bölməyəmi tələsir.
Yoxsa canından keçib
Ölməyəmi tələsir?

"Dayan" deyir əsgərlər,
Dayanmayıb el axır.
Hardasa "göl" olmağa
Elə bil ki, "sel" axır.

"Çıxmaq olmaz şəhərə",
Hara gedir bu axın?
Qanımızla yuyulan
Küçələrə bir baxın.

Çəkilməyib havadan
Hələ barıt qoxusu.
Güllələnib bu gecə
Bu şəhərin yuxusu.

Parçalanıb səkilər,
Ağaclar kökdən çıxıb.
Tanklar yeri şumlayıb
Elə bil ləkdən çıxıb.

Qanlı yollar boyunca
Səpələnib gilizlər.
Bu nəmərd \gülləsindən
Solub neçə gül üzlər.

Kimin isə son sözü
Qanla yazılıb yola:
"Siz Allah qanımızı
Qoymayın yerdə qala...".

Şəhidlərin ayağı
Dəyən yerdə gül bitib.
Harda ki qan tökülüb
Orda qərənfil "bitib".

Abşeronun gülləri
Ayaq açıb şəhərə.
Qərənfillər ağlayır
Bu qaranlıq səhərə.

Asfaltın qara üzü
Qızarır tala-tala.
Bir dəli fəryad qopur:
- Anan ölsün, ay bala...

Ağı deyən o ana
Qara bulud parçası.
Daha bağlı qalacaq
Oğlunun toy boxçası...

"Əzizim, birdi narım,
Bir dinim, bir dinarım.
Əsmə, sabah yelləri -
Ağacda birdi narım...".

***

Yurda sevgi yurd yerinin
Torpağında, daşındadır.
Haray çəkən fağır ana,
Oğlun neçə yaşındadır?

Varmı onun günahı, de?
Buna qeyrət sınağı de...
Ana yurda sən ağı de -
Düşmən ocaq başındadır.

Tək qalmışıq, Allah, təkcə,
Bu dərd yalqız, bu ah təkcə.
Elə bilmə günah təkcə
Bu qaniçən qoşundadır...

**1990**